# ORTA ƏSRLƏRDƏ AVROPA ÖLKƏLƏRİNDƏ KİTABXANAŞÜNASLIQ

**A.A.XƏLƏFOV**
***tarix elmləri doktoru, professor***
***Bakı Dövlət Universiteti***
***abuzerxelefov@mail.ru***

*Məqalədə orta əsrlərdə Avropa ölkələrində xristian dini mərkəzləri kilsə və monastr kitabxanalarının yaranması, onların təşkili və formalaşması haqqında məlumat verilmiş, həmçinin kitabxanaşünaslıq fikirlərinin meydana gəlməsi, təşəkkülü və inkişafı məsələləri araşdırılmışdır.*

***Acar sözlər:*** *Orta əsrlər, xristian dini, kitabxanaşünaslıq fikirləri, kilsə və monastr kitabxanaları*

Tarix elmində olduqca böyük bir dövrü, 15 yüz illiyi əhatə edən, ümumdünya tarixinin qədim dünya tarixindən sonraya, yeni tarixdən əvvələ təsadüf edən dövrü orta əsrlər adlanır. Bu da Roma imperiyası dağıldıqdan (təqribən 476) İngiltərə burjua inqilabına XVII əsrədək olan dövrü əhatə edir. Orta əsrlər dünya kitab və kitabxana tarixində yeni mərhələnin başlanğıcı kimi xarakterizə olunur. Elmin, kitab və kitabxana işinin tarixində olduqca mürəkkəb dövr olan orta əsrlərdə qədim dünya elmi, kitab və kitabxana mədəniyyəti ilə müqayisədə orta əsrlərin başlanğıcında böyük geriləmələr olmuş, qədim dünya elmini, mədəniyyətinin nailiyyətlərinə arxa çevrilmişdi. Tədricən formalaşmaqda olan din, xüsusi ilə dindar fanatiklər bu işdə mühüm rol oynamışlar.

Rim imperiyasında elmin ciddi sürətdə zəifləməsi hələ barbarların şimaldan hücumunun başlanmasına qədər baş vermişdi. Xristian fanatiklər klassik elmlərə, mədəniyyətə, kitab və kitabxana işini onu qəbul etmirdilər. Klassik elmin, alimliyin, mədəniyyətin büdpərəstlik dövründə yaranması, onun törəməsi olması xristian fanatikləri qorxudurdu.

Tədricən cəmiyyət həyatına, insanların dünya baxışına, elm, mədəniyyət, ədəbiyyat və incəsənət sahələrinə daxil olmağa başlayan din, keçmiş, qədim dünya baxışına, adət və ənənələrinə, yaşayış tərzinə, uyğun gəlməyən, dini ehkamların bilavasitə tətbiqinə və təbliğinə xidmət edən yeni-yeni qaydalar yaradırdı. Belə qaydalar dinin formalaşmasında və təbliğində, insanlara çatdırılmasında ən mühüm ideoloji vasitə olan kitabçılığa, kitabın yazılmasına, onu toplayıb saxlayan kitabxana işinə ilk növbədə tətbiq edilirdi. Məhz bu proses qədim dünya kitabxanaçılığının demokratik, elmi ənənələrinə daban-dabana zidd xarakter daşıdığından orta əsrlərin əvvəllərində kitab, onun yazılıb yaradılması, toplanıb saxlanması sahəsində olduqca böyük geriləmə baş verdi və uzun illər davam etdi, qədim dünya kitabçılığının inkişaf meylləri, demək olar ki, dayandırıldı.

Orta əsrlərdə xristian fanatikləri antik dünyanın elmi və mədəni ənənələrini vəhşicəsinə məhv etməkdən çəkinmirdilər. O dövrdən qalan, qorunub saxlanan, elmi və mədəni nailiyyətlər xristian olmayan əyanların fədakarlığı nəticəsində mümkün olmuşdu. Erkən orta əsrlərdə xristian dininin sürətlə yayılması bütün xristian ölkələrində cəmiyyətin ictimai, siyasi həyatına öz təsirini göstərmiş, xüsusi ilə elm, mədəniyyət, ideologiya sahəsində mövcud ənənələrə və qaydalara qarşı mübarizə aparmış, xristianlıq prinsiplərinə, ideologiyasına uyğun və bu hakim dinin əsas ehkamlarını təbliğ edən müəssisələr yaratmağa başladılar.

Erkən orta əsrlərdə kitabçılıq və kitabxana işi sahəsində də yeniliklər baş verdi. Bu yeniliklər qədim dünya elminə və mədəniyyətinə əks olan, dünyəvi elmi və mədəniyyətin inkişafına mənfi təsir göstərən, keçmişdə baş vermiş inkişafa və mütərəqqi ənənələrə mane olan yeniliklər olsa belə, ciddi, tarixi, qarşısıalınmaz bir prosses idi.

Mədəniyyət, kitab və kitabxanalar sahəsində baş verən əsas yenilik xristian dini ehkamlarını təbliğ edən, din xadimlərinin və kilsə rəhbərlərinin əsərlərindən ibarət kitabları toplayıb saxlayan dini kitabxanaların: kilsə və monastr kitabxanalarının meydana gəlməsi olmuşdur. "Toplanış yeri", "məktəb", "sinaqoq" anlamında işlənən kilsələr əsasən xristianlığın, ümumi mütləq hissəsi kimi meydana gəlmiş, ibadət binası kimi fəaliyyət göstərmişdir[1]. Tarix boyu ayrı-ayrı ölkələrdə xristian dinini təbliğ etmək, xristian ehkamlarını insanlar arasında yaymaq məqsədi ilə üzü şərqə inşa edilən gözəl binalar həm də dini məktəblər kimi fəaliyyət göstərirdilər. Məhz buna görə də kilsələri təhsilli, savadlı, xristian ruhaniləri (keşişlər) idarə edirdilər. Kilsələrin dini təhsil və təbliğatçılıq fəaliyyətini həyata keçirmək üçün burada dini kitabların yazılmasına, toplanmasına, üzünün köçürülüb çoxaldılmasına böyük ehtiyac əmələ gəldi. Bu ehtiyacı ödəmək üçün kilsələrdə kiçik kitab fonduna malik kitabxanalar yarandı. Zaman keçdikcə kilsələrin sayı çoxaldıqca, dini təhsil və dini ehkamların təbliği işində onların fəaliyyəti genişləndikcə kilsə kitab toplularının (kitabxanalarının) miqdarı artdı, fondu zənginləşdi, iş prosesi dəyişdi. Demək olar ki, kilsə kitab topluları bütün xristian ölkələrində, İngiltərədə, İtalyada, Fransada, İspaniyada, Almaniyada və s. sürətlə yayılmağa başladı. Orta əsrlərdə yaranan dini kitabxanalar içərisində ən mühüm yeri monastr kitabxanaları tuturdu[2]. Monastr kitabxanaları öz fondlarının zənginliyi, oxucu kontingenti, meddi-texniki bazası, kadr potensialı ilə digər dini kitabxanalardan əsaslı sürətdə fərqlənirdilər.

Monastr yunan sözüdür (monasterion) hərfi mənası zahidin təcrübəsi deməkdir. İlk monastrlar xristianlıqdan çox-çox əvvəl e.ə. I minilliyin axırında Hindistanda yaranmışdı. Bu monastrlar zahid məskənləri şəklində ilk dəfə

[1] ASE; C.V, B., 1981, s. 369
[2] Горбачевский Б. Люди, книги, библиотеки. М., 1963, стр. 38-39





III-IV əsrlərdə Misirdə, sonra isə Fələstin, Suriya, daha sonra Avropa xristian dövlətlərində geniş sürətdə yayılmağa başladı. Monastrlarda toplaşan zahidlərin özünə məxsus nizamnamələri var idi. Həmçinin nizamnamələr zahidlərin monastrların təşkilini, idarə edilməsi vəzifələrini müəyyənləşdirən əsas sənəd idi. Bu nizamnamə monastra gələn hər bir monarxın əxlaq normalarınıda müəyyənləşdirirdi. Monarxlar tərkidünya olmalı, dünyanın bütün naz-nemətindən imtina etməli, evlənməməli, ancaq monastrda Allaha dua etməklə məşğul olmalı idilər.

Feodalizm dövründə müstəqil təsərrüfat strukturları olan monastrlar feodalizmin inkişaf prosesində iri feodal torpaq sahiblərinə çevrilmişdilər. Təhsilin kilsənin nəzarəti altında olduğu erkən orta əsrlərdə dövrlərdə xristianlığın dayaqlarından biri olan monastrlar təhsilin təşkili sahəsində əsas müəssisələrdən biri kimi mühüm rol oynayır, kitabın hazırlanmasında, toplanıb saxlanmasında, üzünün köçürülüb çoxaldılmasında xüsusi xidmət göstərirdilər. Erkən orta əsrlərdə xristian dinində parçalanma baş verdi. Dində biri-birindən fərqli olan iki kilsə hakimiyyəti: apostol kilsələri və Rim-katolik kilsələri meydana gəldi. Bu kilsələr xristian kilsələri olsalar da biri-birindən fərqli cəhətləri, qaydaları və inancları var idi. Hər bir kilsə öz dini ehkamlarına müvafiq monastrların yaradılmasında və idarə edilməsində, dini təbliğatın, dini təhsilin və ibadətlərin təşkilində öz qaydalarından istifadə edirdilər. Bir qayda olaraq həm apostol, həm də Rim-katolik kilsələrində və onlara məxsus monastrlarda kitab yazmaq, kitabı toplayıb saxlamaq, kitab fondları yaratmaq, xristian ehkamlarını təbliğ etmək, din xadimləri yetişdirmək əsas vəzifə kimi qarşıya qoyulmuşdu. Bu sahədə ibadət mərkəzi olan kilsələrə nisbətən monastrlarda daha ciddi iş görülürdü. Məhz ilk dini kitabxanaların yaradılması monastrlarda baş verirdi. Monastrların təşkili geniş vüsət almışdı. Dini və müqəddəs kitabların üzünün köçürülüb çoxaldılmasında din xadimlərinin əsərlərinin hazırlanması, üzünün köşürülüb çoxaldılması, kitabların qorunub saxlanması, kitabxana fondlarının yaradılması və ondan istifadənin təşkili işində savadlı monarxlardan istifadə edilməsi bu işi xeyli qaydaya salırdı. Kitabxana tarixində ilk kilsə, monastr kitabxanalarının hansı xristian ölkəsində meydana gəlməsi, ilk dini kitabların yaranması, haqqında dəqiq məlumat olmasa da, belə bir tarixi fakt mövcuddur ki, erkən orta əsrlərdən ilk dini kitabxanalar şəbəkəsi formalaşmağa başlamışdır. Xristian dünyasının ilk və böyük kitabxanası kimi şöhrət tapmış, Vatikan-Papa kitabxanasının yaranması haqqında tarixi məlum olmasa da mütəxəssislər bu kitabxananın 700-cü illərdən fəaliyyət göstərməsi haqqında məlumat verirlər. Kitabxana Papanın arxivinin yanında fəaliyyət göstərirdi[1]. Məhz ilk kitabxanaçılıq fikirləri də kilsə və monastr kitabxanalarında meydana gəlib formalaşmağa, zaman

[1] Д.Х.Шира, Введение в библиотековедение., М., 1983, с.30

keçdikcə sistemləşməyə təkamül yolu ilə kitabxanaşünaslıq biliklərinə çevrilməyə başlamışdır.

Kitabxanaşünaslıq fikirlərinin formalaşmasında kilsə və monastrların idarə edilməsində iştirak edən təhsilli kitabxanaçıların rolu danılmazdır.

Avropa xristian ölkələri kilsə və monastrlarının tarixində ilk peşəkar kitabxanaçıların adı XV-XVI əsrlərdən çəkilməyə başlamışdır. Belə kitabxanaçılardan biri Maqnus Avreliy Kassiodar (487-575) olmuşdu[1]. Rim hökumətində katib vəzifəsində çalışan Kassiodor dövlət işindən uzaqlaşdıqdan sonra təxminən 550-ci ildə Vivaridə monastr yaratdı. Uzun illər bu monastrın təşkili və formalaşmasında böyük iş görən Kassiodar monastr kitabxanasının əsasını qoymuş, onu formalaşdırmış, kitabxana işinin təşkili və idarə edilməsi üçün öz dövrü üçün olduqca böyük elmi əhəmiyyət kəsb edən yeni fikirlər irəli sürmüşdür. Kassiodor öz fikirlərini "Monastrın və monastr kitabxanasının idarə edilməsi" haqqında hazırladığı qaydalarda əsaslandırmış və özünün "Ruhi və dünyəvi kitab müəssisəsi" adlı əsərində ümumiləşdirmişdir[2]. Bu əsər kitabxana quruculuğuna dair ilk əsər kimi kitabxana işinin təşkili, kitab fondlarının təşkili, kitabların qorunub saxlanması, oxuculara verilməsi qaydaları haqqında sadə və primitiv olsa da ilk kitabxanaçılıq fikirləri kimi qiymətli idi. Xüsusi ilə kitabxana fondu, kitabların seçilib toplanması üçün olduqca qiymətli fikirlər kimi gələcəkdə kitabxana fondlarının komplektləşməsi, kitabların seçilməsi qaydaları üçün çox dəyərli idi.

Orta əsrlərdə dini müəssisələr tədricən kitabı toplayıb saxlayan, kitabın yaranmasında və üzünün köçürülüb saxlanmasında, yaxından iştirak edən bir müəssisə kimi kitabçılığın mərkəzlərinə çevrilirdilər. Dini müəssisələrdə kitabçılığın inkişafı prosesinin genişlənməsi, bu mühüm işə istedadlı, kitabı sevən onu qiymətləndirməyi bacaran qabaqcıl fikirli, dini kitablarla yanaşı dünyəvi kitablara da böyük qiymət verən, cəmiyyətin inkişafında elm, təhsil və tərbiyə işində kitabın böyük əhəmiyyətini başa düşən din xadimlərinin sıraları genişlənir. Kassiodorların davamçıları meydana gəlirdi. Belə din xadimləri Avropa ölkələrindən İngiltərədə, İtalyada, Fransada, Almaniyada, İspaniyada, Fransada və s. daha geniş fəaliyyət göstərirdilər.

Kassiodorun müasiri olan müqəddəs Benedikt (İtalya), Müqəddəs Avqustin (İngiltərə) və b. yeni monastrlar təşkil etməklə onların kitabxanalarını yaratmış, kitabxanalar haqqında "qaydalar" tərtib etmiş, bilavasitə kitabxanaların işində, onların fondunun formalaşmasında, oxuculara xidmət işinin təşkilində və mütaliə prosesində yaxından iştirak etmişlər. Qərbi Avropa ölkələrində kitab və kitabxana işinə xüsusi əhəmiyyət verən mütərəqqi fikirli din xadimlərinin və keşişlərin yetişməsinə baxmayaraq IV-IX əsrlərdə bir neçə ölkələr istisna edilməklə dini kitabxanaların yaranması və geniş

[1] Б.Ф.Володин, Всемирная история библиотек. С.Петербург., 2004. стр. 38-39
[2] Д.Х.Шира, Введение в библиотековедение., М., 1978, с.30-31





kitabxana fəaliyyəti sahəsində elə bir diqqəti çəkən iş görülmədi. Kitabxana tarixçiləri belə ölkələr içərisində İspaniyanın adını xüsusi ilə vurğulayırlar. İspanlar sözün əsl mənasında zəngin, nadir və dünyəvi kitab fonduna malik monastr kitabxanaları yaratmağa, onların idarə edilməsini təşkil etməyə müvəffəq olmuşdular. Zəngin kitab fonduna malik monastr kitabxanaları yaratmaqda öz dövrünün görkəmli din xadimlərindən olan yepiskop S.İsadorun (570-636) fəaliyyəti xüsusi ilə diqqətə layiq olmuşdur[1]. İsadorun monastr kitabxanalarının idarə edilməsində və monastr kitabxanaları üçün kadrlar hazırlanmasında da xüsusi xidmətləri var idi. Onun kitabxanaların idarə edilməsinə dair ideyaları kitabxanaçılıq fikirlərinin inkişafına da müsbət təsir göstərmişdi.

Orta əsrlərdə dini məktəblərin yaranması ilə əlaqədar dini məktəb (tədris) kitabxanalarıda meydana gəldi. Bu dövrdə kitabların öyrənilməsinə və təbliğinə xüsusi önəm verən böyük kilsələr birləşərək dini məktəblər (kafedra məktəbləri) yaratmağa başladılar[2]. Belə məktəblər ilk dövrlərdə İngiltərədə, Fransada, İspaniyada və s. yaranmışdı. Öz məqsəd və vəzifələri etibarı ilə universitetləri xatırladan kafedral məktəblərin əsas məqsədi din xadimləri, ruhanilər və dünyəvi biliklərə yiyələnmiş adamlar hazırlamaq idi. Yepiskopların (keşiş) və arieyepiskopların (baş keşiş) iqamətgahlarının kafedral məktəblərdə yerləşməsi onların əhəmiyyətini xeyli artırmışdı.

Kafedral məktəblərində kitabxanaların yaradılması dini kitabxanaların yeni tipinin meydana gəlməsinə səbəb olmaqla, dini kitabxana şəbəkələrinin genişlənməsinə və kitabxana işində yeni iş forma və metodlarının formalaşmasına səbəb oldu. Kafedral məktəblərin kitabxanaları öz fondunun tərkibi və struktur quruluşu etibarı ilə monastr və kilsə kitabxanalarından əsaslı şəkildə fərqlənir, onların işi elmi və tədris xarakteri daşıyırdı. Əlbəttə, kefedral məktəb kitabxanalarında baş verən yeni proseslər kitabxanaçılıq fikirlərini yeni ideyalar və müddəalarla zənginləşdirir, kitabxana təcrübəsinə yeni keyfiyyətlər gətirirdi.

**Ədəbiyyat**

1. Azərbaycan Sovet Ensiklopediyası. 1981, s. 5.
2. Библиотечная энциклопедия. М., 2007
3. Володин Б.Ф. Всемирная история библиотек. С.Петербург, 2004
4. Горбачевский Б. Люди, книги, библиотеки. М., 1963
5. Карташов Н.С., Скворцов В.В. Общее библиотекаведение. М., 1996
6. Xələfov A.A. Kitabxanaşünaslığa giriş, 2001
7. Шира Д.Х. Введение в библиотековедение., М., 1978

[1] Володин Б.Ф. Всемирная история библиотек. С.Петербург, 2004, стр. 39
[2] Д.Х.Шира, Введение в библиотековедение., М., 1978, с.33

## Library study in europen countries in middle ages

A.A.Khalafov

**Summary**

*The article deals with the establishment, orqanization and formation of christian religions centers, church and monastery libraries in European countries in Middle Ages and studies the issues of establishment and development of librariansip ideas.*

***Key words:*** *Middle Ages, Christianity, librerianship icteas, church and monastrey libraries.*

## Библиотековедение европейских стран в средние века

А.А.Халафов

**Резюме**

*В статье исследуется центры христианской религии европейских стран в средние века, образование церковных и монастрских библиотек, даются сведения об их организации и формировании.*

***Ключевые слова:*** *средние века, христианская религия, мысли о библиотековедении, церковные и монастрские библиотеки*